

**Şahnaz ŞAHİN**

## TƏRANƏ MƏMMƏDİN LAYİHƏSİ

**“SÖZÜN HÜZURUNDA “**

**Bu dəfə ““SƏMİMİ SÖHBƏT””in aparıcısı mən- ŞAHNAZ ŞAHİN , qonağı isə TƏRANƏ MƏMMƏD oldu.**

*Vaxt bizə, biz də vaxta işlədik. Uzun müddət mötəbər dövlət orqanlarından birində işləmiş, indi isə uğurlu ədəbi yazıları ilə sevilən söz adamını bir az da yaxından tanıyın. Beləliklə başladıq.*

**Sual:**Təranə xanım, bilirəm ki, uşaqlığınız Qarabağda keçib Bəs kim olduğunuzu nə zaman və hansı şəraitdə kəşf etmisiniz?

**Cavab:** Uşaqlığım Qarabağın Ağdam şəhərində keçib. Ailəmiz Ağdamdan Bakıya köçəndə mənim 10 yaşım var idi. Sonralar tez-tez Ağdama və mütləq Şuşaya istirahətə gedirdik. Yəni mən orda yaşamasam da işğala qədər Qarabağdan heç ayrılmamışam. Məncə Qarabağın xüsusi bir aurası var. Ora ayaq basan hər kəs bunu duyur. Şuşada bir dəfə olan ordan qayıtmaq istəmir. Ora yenidən gəlmək istəyir.

Külli Qarabağın abi- həyatı
Nərmə-nazik bayatıdır, bayatı.

Məncə bu misralar Qarabağın ecazkarliğini özündə tam əks edir. Bilirsiz, insan çox vaxt malik olduğunun qədrini onu itirdikdən sonra daha çox bilir. Şəxsən mən Qarabağı həsrətli illərimizdə daha çox sevdim. Bu tək həsrət deyildi, bu həm də nələrisə vaxtında etmədiyimizin təəssüf hissiydi.

Desəm ki, özümü lap uşaqkən kəşf etməli olmuşam, yəqinki, inanmazsınız. Amma bu həqiqətən belə olub. Mən özümə qarşi haqsızlığı ilk dəfə birinci sinifdə oxuyarkən hiss edib şəxsi

məsuliyyətimi dərk etmişəm. Belə ki, mən Ağdamdaki 2 nömrəli beynəlmiləl məktəbin rus sektorunda oxumalıydım. Müəlliməmiz mənim və bir başqa qızın rus dilini güya lazımı səviyyədə bilməməyimizə əsaslanıb bizi başqa sinfə yerləşdirmişdi. Sonralar bildim ki, Ağdamda dislokasiya edilmiş hərbi hissənin hərbiçilərinin uşaqlarının yerini tutduğumuza görə bizi başqa sinfə keçirdiblər. Tezliklə atalarımız ikimizi də öz sinfimizə bərpa etdilər. Onda mən özümə və atama söz verdim ki, sinifdə oxuyan ruslardan da yaxşı oxuyacam. Belə də oldu.

**Sual:** Insan sirli məxluqdur. Özünü itirən zamanları da olur onun. Bəs siz bu zaman özünüzü hansı sirdə tapırsınız..?

**Cavab:**İnsan həqiqətən o qədər sirli bir məxluqdur ki, bəzən özü də bu sirlərdən baş aça bilmir. Həyatda dəfələrlə ani çaşqınlıq yaşasam da mən özümü nadir hallarda itirirəm. Yəni tez qərar qəbul etməyi bacarıram. Belə olduqda sirrdən çox özümü aşkarda daha çox tapıram.

**Sual:**Uşaq yaddaşı daşa yazılır deyirlər. Sizin daşa nə yazılıb ki, bu gün də pozulmayıb və o uşaqlığın hansı məqamlarına qayıtmaq istərdiniz?

**Cavab:** Uşaqlığımın hər anı yazılıb daşa. Pozulmaz hərflərlə yazılıb. Təbii ki, ilk növbədə atalı, analı günlərim . Uşaqlığım Qarabağda keçdiyindən nəinki unudulmadı, hər dəfə yeni bir hisslə yada salındı. O günlərin hər birinə qayıtmaq istərdim. Hər birində əzizlərim, doğmalarım indi həyatda olmayan yaxınlarım var idi axı.

**Sual:** Valideynləriniz haqda az da olsa məlumatım var. İstəyirəm oxucular da öyrənsin. Xüsusən qanun keşikçisi olan atanız barədə Bilirəm ki, yazılarınızda onun da obrazını yaratmısınız. Özü də tamamilə fərqli bir hüquq müdafiəçisi kimi…

**Cavab:** Mən həmişə deyirəm və yenə təkrar edirəm ki, həyatda əldə etdiklərimin hamısına görə valideynlərimə borcluyam və onlara minnətdaram.

Anam əczaçı idi, ancaq heç vaxt işləməmişdi. Onun əczaçılığı evdə ətirlərin,çiçəklərin qarışığından yeni ətirlər yaratmaqdan ibarət idi. Bunu evdə sakitcə edər və heç kimə ətiri nədən düzəltdiyini deməzdi. Qəribədir ki, anam dindar deyildi, ancaq şəriət qanunlarıyla yaşayırdı və bizi də elə tərbiyə edirdi.

Atam haqda çox yazmışam. Bir neçə hekayəmin qəhrəmanlarının

real prototipidir atam. Atam ömrünün 50 ilini hüquq mühafizə sahəsində çalışmağa həsr edib. Muharibə vaxtı Ağdamda komissarlıqda, sonralar Azərbaycanın bir çox bölgələrində milis rəisi işləyib. Bəlkə ona görə bizim hər rayonda tanışımız, dostumuz olub və indiyə qədər də atamı xatırlayanlar var. Ailəmizdə atama xüsusi münasibət var idi həmişə. Atam şəxsiyyət idi. O heç vaxt yalan danışmazdı, işində, ailədə çox məsuliyyətli idi. Biz onunla özümüzü həmişə arxalı, dayaqlı hiss edirdik. Bilirdik ki, büdrəsək əlimizdən tututb qaldıranımız var. Atam ciddi və zəhmli olmaqla bərabər çox yumşaqürəkli və mehriban insan idi. Onda insanları anlamaq, düzgün qərar qəbul etmək qabliyyəti var idi. Hekayələrimin birində milis rəisi öz oğlunun qatilini bağışlayır, digərində 10 il qadın koloniyasında dustaq olan rus qadının getməyə yeri olmadığı üçün milis mayoru onu həmişəlik öz evinə baxıcı kimi gətirir və ailəsində saxlayır. Həmin qəhrəmanlarımın həyatda prototipi atam olduğunu qürurla dəfələrlə qeyd etmişəm. Atamın həyatda etdikləri bizə bir örnək idi. O heç vaxt evladlarını qarşısında otuzdurub onlara tərbiyəvi mühazirələr oxumazdı. O bizə yaşamağı əməlləriylə, gördüyü işlərlə öyrədirdi.
**Sual:**Bəs elə isə deyin, ananızın o reseptlərindən sizdə qalırmı, istifadə edirsizmi onun təcrübəsindən?
**Cavab:** Edirəm, bəli. Mənim istifadə etdiyim ətiri heç kim tanımır. Ona görə ki, ona bir qədər sirr qatıram)). Bir əsərimdə qadının əlindən öpən sevgilisi onun ətirini tanımadığını deyir. Qadın gülə-gülə cavab verir: “Mən istifadə etdiyim ətirin adını heç kimə demirəm”. Qeyd edim ki, əsərin adı “Sirr”dir .
**Sual:** Ali təhsil illəri,gənclik xatirələri o qədər əziz olur ki… Xatırladıqda uzaqlaşır… Əlini uzadırsan tuta bilmirsən. Bu barədə indiyə qədər heç kimə demədiyiniz nələr var içinizdə?
**Cavab:** Tələbəlik illərindən danışdıqda belə, insan ruhən cavanlaşır. Mən 16 yaşımda tələbə oldum. Düzünü deyim ki, həyata hazır deyildim. Evdə həmişə valideynlərimin, məndən böyük baçılarımın və qardaşımın himayəsini hiss edirdim. Tələbəliyin ilk aylarından təkbaşına həll edə bilməyəcəyim qayğılar yaşamalı oldum. O illər həyatımda bir çox yadda qalan iz buraxdı. 19 yaşımda tələbəliyin ən gözəl çağlarını yaşayarkən qəfildən anamı itirdim. Bu mənim üçün çox ciddi sarsıntı idi. Əgər dostlar, qohumlar, baçılarım, qardaşım

və, ən əsası, atam olmasaydı çox çətin olardı. Anamın ölümü məni tam dəyişdi. Adətən səsli-küylü, deyib-gülən, çalıb-oxuyan bir gənc qızdan susqun, kədərli bir insana çevrildim. Anamdan sonra həyatımda baş verənlər sanki mənimlə deyil, başqa bir insanla əlaqəli idi. Hekayələrimin birində yazmışam ki, "anasız gəlin köçmək o qədər çətindir ki! Gözün ən yaxın adamı, ananı axtarır o gün . Tapmayanda için yanır, gəlinlik gününün xoşbəxtliyini tam hiss edə bilmirsən". Zaman keçdikcə çox şeylə barışdım. Həyat öz məcrasına düşdü. Bax tələbəliyimin bu məqamlarını heç vaxt heç kimə deməmişdim.

**Sual:** Bəs sevgiyə münasibətiniz necədir? Axı gənclik həyatın elə mərhələsidir ki, qan qaynayır, qəlb coşur. Gözlər qeyri-adi işıqlanır. Bir sözlə, hər şey insanı sevib yaşamağa çağırır… ilk sevgi var, bəs son da varmı?

**Cavab:** Banal cavab olsa da deyəcəm ki, sevgisiz yaşayanlar bədbəxt insanlardır. Sevgi bəşəriyyəti, insanlığı, ümumiyyətlə, dünyanı çökməyə qoymayan bir hissdir. Sevən insan həyata daha çox bağlanır, daha güclü olur. Hər birimizin gənclik sevgisi olub təbii ki. Bu insanın qəlbinin lap dərinliyində saxlanan gözəl bir hissdir. Adətən ilk məhəbbət yalnız yadda qalmaq üçün olur. Yəni sevənlər bir -birinə qovuşmurlar. İlk sevgi mütləq var və o sonsuza qədər davam edir məncə, çünki ilk məhəbbətin həsrəti vüsalından güclü olur adətən.

Sevmək gözəl hiss olsa da, sevərək ayrılmaq da var, bir gün sevdiyinin sənə xəyanəti də var, sən sevdiyinin başqasını sevməyi də var, sən sevib ürəyini verdiyinin səni bəyənməyib dəfələrlə sözlə yaralamağı da var. Sevgi varsa ayrılıq da var. Bütün bunlar həyatda var və yaşanır. Mən deyərdim ki, sevginin nə əvvəli nə sonu var. Çünki birinin sevgisi bitdiyi gün digərininki ilk addımını atır. Bir sevgi öldükdə hardasa mütləq digəri doğulur. Bunu normal qəbul etmək lazımdır.

**Sual:** Bilirəm ki, siz o zaman KQB, sonra MTN adlanan qurumda uzun illər işləmisiniz. Onda olmasa da indi məncə nələrisə açıb danışmaq olar. Necə oldu ki, sizi elə bir mötəbər quruma işə qəbul etdilər?

**Cavab:** Bir gün iş yerimə həmin nazirlikdən çağırış gəldi. Əvvəl bu çağırışa bir qədər təəccübləndim, lakin getdim və həmin o qurumun

yüksək rütbəli zabitləri mənimlə görüşüb söhbət etdilər. Bu söhbətlərin nə ilə nəticələndiyini təxminən iki il sonra yenidən ora dəvət ediləndə bildim. Bu müddətdə mənim kimliyim yoxlanırdı.Bu dəfə mənə konkret iş təklif olundu, mən razılaşdım və həmin nazirliyin zabiti oldum. MTN əməkdaşı olduğuma görə özümlə və həmin nazirliyin dövlət və dövlətçilik naminə gecə, gündüz, İstirahət günləri çalışan zabitləriylə qürur duyuram. İnanın ki, bu ürəyi sirlərlə dolu, lakin həmişə susmaq məcburiyyətində olan, kənardan çox adi insan kimi görünən, heç vaxt öz qəhrəmanlıqlarıyla açıq-aşkar fəxr edə bilməyən insanlar həqiqətən hörmətə və təqdirə layiqdirlər.
**Sual:** Təranə xanım, deyə bilərsinizmi ki, zaman sizə işləyib. Sizmi zamanın nəbzin tutmusunuz?
**Cavab:** Aid olduğum nəslin nümayəndələri zamanın nəbzini tutmağı o qədər də bacarmırlar məncə. Bu mənim subyektiv fikrimdir . Səhv edə bilərəm, təbii ki. Ona görə deyə bilərəm ki zaman mənə işləyib
**Sual:** Ədəbi aləmdə sizi ən çox maraqlı hekayələrinizlə tanıyırlar. Hətta şeirlər də yazırsınız. Hekayələrinizi oxuyanda dünyanı cənnət, qəhrəmanlarınızı isə huri hesab edirəm. Sanki real məkanda deyil, tam başqa bir planetdə dövr edir hadisələr. Sizcə səbəb nədir?
**Cavab:**Ədəbi aləmdə çox da tanındığımı heasab etmirəm. Amma oxucularım var. Kitablarım satılır. Hekayələrimi oxuyanlar var və bu məni şox sevindirir. Mən A. P. Çexovun “sözlərin yeri dar, fikrin yeri geniş olsun” prinsipiylə yazıram. Hesab edirəm ki, bu həm də günün tələbidir. Hekayələrim fantastik deyil, hadisələr başqa planetdə deyil elə öz planetimizdə cərəyan edir. Hekayələrimin arxasında həmişə kiçik bir real həyat epizodu durur. Sizinlə razıyam ki, mən həyatın yalnız yaxşı cəhətlərini əks etdirirəm hekayələrimdə. Səbəb çox sadədir. Mən bu çirkinliklərlə, əzab-əziyyətlə, yalanla, xəyanətlə dolu həyatda gözəlliyi, sevgini, etibarı, ləyaqəti, vicdanla yaşamağı görüb göstərmək istəyirəm.Mən ölümdən yazmaqla olumun qədrini bilməyə çağırıram oxucunu. Bəzən də əksinə.
**Sual:** Təranə xanım, deyirlər, ən tez unudulan şey yaxşılıqdır. Çoxmu yaxşılıq etmisiz, çoxmu unudulmusuz…
**Cavab:** Məni tanıyanlar bilir ki, mən pislik etməyi bacarmıram. İnsanlara həmişə yaxşılıq etməyə çalışmışam. İnanın mənə, heç vaxt yaxşılığın əvəzini gözləməmişəm. Çünki yaxşılıq etmək ürəkdən gəlməlidir və bu təmənnasız olmalıdır məncə. O səbəbdən, kim

mənim yaxşılığımı unudubsa, halah xoşu olsun. Unudulduğumu zənn etmirəm, çünki özüm çətin unuduram.
**Sual:** Həyatımızdan ömründə bir dəfə də olsa qırmızı xətlə keçən insanlar olur. Bu bəzən bütün həyat axarını dəyişir. Münasibətiniz…
**Cavab:** Mənim həyatımda belə insanlar olub. Bacımın həyat yoldaşı BDU-nun professoru, tanınmış etnoqraf mərhum Həvil Həvilovun mənim şərqşünas olmağımda rolu böyük olub.Osman Mizəyevdən kollektivdə davranmağı öyrənmişəm. Ziya Bunyadov mənə elmə bağlanmamağı məsləhət gördükdə əvvəl incisəm də sonralar onun nə qədər haqlı olduğunu anladım.Şərqşünaslıq fakültəsinin kafedra müdiri və mənim müəllimim Ələskər Məmmədovun məni ali məktəb müəllimi kimi şərəfli bir işlə təmin etməsini heç vaxt unutmuram. Və nəhayət, məni ədəbi yaradıçılıqla məşğul olmağa məcbur edən Nizami Təhməzovu həmişə dərin ehtiramla xatırlayıram. Bu insanlar həyatımın müxtəlif mərhələlərində mənə dəyərli məsləhətlər veriblər. Dediklərinizə münasibətim belədir ki, həyatda müəyyən mövqe tutmuş və səndən daha güclü insanlardan dərs alıb məsləhətlərinə qulaq asmaq heç də zəiflik deyil məncə.
**Sual:** Azərbaycan 30 ilə yaxın Qarabağ həsrətinə son qoydu . 44 gün davam edən döyüşlərdən ölkəmiz üzü ağ çıxdı. Şəhid də olduq , qazi də. Söz adamı kimi bu hadisələrə münasibətiniz…
**Cavab:** Şəhidlərimizin ruhları qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin. Qazilərimizə can sağlığı arzu edirəm. Söz adamı kimi zəfərimiz haqda öz sözümü hələ tam deməmişəm. Bu mövzuda yazdığım bir neçə hekayə hələ son deyil. Hərdən mənə elə gəlir ki, həsrətdən o qədər yazmışam ki, qələbə sevincinə keçid ala bilmirəm. Həm vətəndaş, həm söz adamı, həm zabit kimi deyə bilərəm ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixindəki qara ləkələri silib özünə orda əbədi yer aldı. Bu 44 gün dünya ölkələrini Azərbaycana yeni baxışla baxmağa məcbur etdi. Azərbaycan xalqı bütün dünyaya misli görünməmiş birlik, vətənpərvərlik nümayiş etdirdi. Ali Baş Komandanın dəmir yumruğu altında birləşən ordu və xalq Zəfər çaldı. Bu hadisə bizə qalib ölkənin vətəndaşları kimi fərəhli və qürurlu adı qaytardı. Təbii ki, həm xaricdə, həm daxildə bu qələbəni həzm etməyənlər var. Lakin onlar da artıq reallıqla barışmalıdırlar.
**Sual:** Ömrün, həyatın elə mərhələsindəyik ki,geriyə baxanda kədər,

irəli baxanda ümid əl edir bizə. Yeni planlarınız, arzularınız.Həyata keçməyən istəkləriniz olubmu? Keçmişə dönmək imkanınız olsaydı hara gedərdiniz?
**Cavab:** Elədir, zaman amansızcasına ötüb keçir və keçmiş xatirəyə çevrilir, lakin hər yaşda insanı həyata bağlayan, uzun qaranlıq tunelin sonunda parıldayan bir ümid işığı olur. O işıq varkən insan planlar qurur, arzular haqda düşünür. Çox istəyərdim ki, bu il nəhayət çoxdan nəzərdə tutuduğum romanım işıq üzü görsün. “Sirr “ adlandırdığım bu roman artıq son variantda çox ehtimal ki, bu il oxuculara təqdim ediləcək.
Həyata keçməyən arzularım olub əlbəttə. Nələrisə asanlıqla əldə edə bilmişəm. Nələrisə çox çətinliklə. Arzu olaraq ürəyimdə qalanlar da olub. Həyatdı da…
Hər birimiz keçmiş yaşayırıq. Keçmişi yaşamasaydıq gələcəyə addımlaya bilməzdik yəqin ki… Ötən günlər ötən sevgi kimidir . Ötdüsə, keçdi, getdi… Geri qayıtmaz…
Ancaq siz dediyiniz kimi möcüzə nəticəsində geri qayıtmaq mümkün olsaydı mütləq Qarabağa Şüşaya, Ağdama qayıdardım. Mütləq Qarabağa! Çünki bu yaşımda daha çox dərk edirəm ki, ömrümün ən yadda qalan günləri məhz Qarabağla bağlıdır.
**Sual:** Sizə vermədiyim və siz özünüz özünüzə verəcəyiniz sual nə ola bilərdi?
**Cavab:** Harda səhv etdim? Türk mahnısında deyildiyi kimi “nərədə yalnış yapdım?”
Düşünürəm ki, Tanrı insana bir neçə dəfə şans verir. Hətta bəzən öz taleini dəyişə biləcək qədər şanslı ola bilir insan. Lakin hər kəs bu şanslardan düzgün istifadə edə bilirmi? Hər kəs ona verilən imkanı öz xeyrinə işlədə bilirmi? Hesab edirəm ki, çox şanslı olmuşam həyatda. Dəfələrlə açılmayan qapılar açılıq qarşımda. İndi, zaman keçdikcə olanları, baş verənləri, şəxsi həyatımı xəyalımdan keçirərək hərdən özüm özümdən soruşuram. Harda səhv etdim? Bəlkə də heç səhv etməmişəm, bəlkə bütün yaşananalar yaşanmalı idi. Bilmirəm. Amma bu sualı verərdim özümə.
**Sual:** “Sirr”in mövzusu hardan alınıb? MTN də yaşadıqlarınızı ədəbiyyata çevirmək fikriniz varmı?
**Cavab:** “Sirr” iki insanın sevgi məcarası ətrafında müəyyən dövrdə olkədə baş verənləri əhatə edən bir əsərdir. Mövzusu həyatdan

götürülüb. Bəlkə də romanı oxuduqda kimsə hətta qəhrəmanları tanıyacaq.
O ki qaldı MTN də yaşadıqlarımı ədəbiyyata çevirmək fikrinə, çox ehtimal ki, yox. Əgər ehtiyac duyularsa hər hansı bir vəsait yaza bilərəm. Yəni iş təçrübəmi cavan kadrlarla bölüşərəm. Təbii ki, tam məxfi)).
**Sual:**Sizə can sağlığı, həyatda bundan sonra da şərəflə yaşamağı arzulayıram. Sözün hüzurunda tanrı kimi, Tanrının hüzurunda söz kimi dayanmağı diləyirəm!
**Cavab:**Bu maraqlı və orijinal diləyi ilk dəfə eşidirəm, Şahnaz xanım. Ona görə məmnuniyyətlə qəbul edib sizə təşəkkür edirəm.
Şahnaz Şahin
Təranə Məmmədlə
Bu dəfə "Səmimi söhbət"in aparıcısı mən, Şahnaz Şahin, qonağı isə Təranə Məmməd oldu.
Vaxt bizə, biz də vaxta işlədik. Bu da nəticəsi…
**Sual:**Təranə xanım, bilirəm ki, uşaqlığınız Qarabağda keçib Bəs kim olduğunuzu nə zaman və hansı şəraitdə kəşf etmisiniz?
**Cavab:** Uşaqlığım Qarabağın Ağdam şəhərində keçib. Ailəmiz Ağdamdan Bakıya köçəndə mənim 10 yaşım var idi. Sonralar tez-tez Ağdama və mütləq Şuşaya istirahətə gedirdik. Yəni mən orda yaşamasam da işğala qədər Qarabağdan heç ayrılmamışam. Məncə Qarabağın xüsusi bir aurası var. Ora ayaq basan hər kəs bunu duyur. Şuşada bir dəfə olan ordan qayıtmaq istəmir. Ora yenidən gəlmək istəyir.
Külli Qarabağın abi- həyatı
Nərmə-nazik bayatıdır, bayatı.
Məncə bu misralar Qarabağın ecazkarliğini özündə tam əks edir. Bilirsiz, insan çox vaxt malik olduğunun qədrini onu itirdikdən sonra daha çox bilir. Şəxsən mən Qarabağı həsrətli illərimizdə daha çox sevdim. Bu tək həsrət deyildi, bu həm də nələrisə vaxtında etmədiyimizin təəssüf hissiydi.
Desəm ki, özümü lap uşaqkən kəşf etməli olmuşam, yəqinki, inanmazsınız. Amma bu həqiqətən belə olub. Mən özümə qarşi haqsızlığı ilk dəfə birinci sinifdə oxuyarkən hiss edib şəxsi məsuliyyətimi dərk etmişəm. Belə ki, mən Ağdamdaki 2 nömrəli beynəlmiləl məktəbin rus sektorunda oxumalıydım. Müəllimәmiz

mənim və bir başqa qızın rus dilini güya lazımı səviyyədə bilməməyimizə əsaslanıb bizi başqa sinfə yerləşdirmişdi. Sonralar bildim ki, Ağdamda dislokasiya edilmiş hərbi hissənin hərbiçilərinin uşaqlarının yerini tutduğumuza görə bizi başqa sinfə keçirdiblər. Tezliklə atalarımız ikimizi də öz sinfimizə bərpa etdilər. Onda mən özümə və atama söz verdim ki, sinifdə oxuyan ruslardan da yaxşı oxuyacam. Belə də oldu.

**Sual:** Insan sirli məxluqdur. Özünü itirən zamanları da olur onun. Bəs siz bu zaman özünüzü hansı sirdə tapırsınız..?

**Cavab:**İnsan həqiqətən o qədər sirli bir məxluqdur ki, bəzən özü də bu sirlərdən baş aça bilmir. Həyatda dəfələrlə ani çaşqınlıq yaşasam da mən özümü nadir hallarda itirirəm. Yəni tez qərar qəbul etməyi bacarıram. Belə olduqda sirrdən çox özümü aşkarda daha çox tapıram.

**Sual:**Uşaq yaddaşı daşa yazılır deyirlər. Sizin daşa nə yazılıb ki, bu gün də pozulmayıb və o uşaqlığın hansı məqamlarına qayıtmaq istərdiniz?

**Cavab:** Uşaqlığımın hər anı yazılıb daşa. Pozulmaz hərflərlə yazılıb. Təbii ki, ilk növbədə atalı, analı günlərim . Uşaqlığım Qarabağda keçdiyindən nəinki unudulmadı, hər dəfə yeni bir hisslə yada salındı. O günlərin hər birinə qayıtmaq istərdim. Hər birində əzizlərim, doğmalarım indi həyatda olmayan yaxınlarım var idi axı.

**Sual:** Valideynləriniz haqda az da olsa məlumatım var. İstəyirəm oxucular da öyrənsin. Xüsusən qanun keşikçisi olan atanız barədə Bilirəm ki, yazılarınızda onun da obrazını yaratmısınız. Özü də tamamilə fərqli bir hüquq müdafiəçisi kimi…

**Cavab:** Mən həmişə deyirəm və yenə təkrar edirəm ki, həyatda əldə etdiklərimin hamısına görə valideynlərimə borcluyam və onlara minnətdaram.

Anam əczaçı idi, ancaq heç vaxt işləməmişdi. Onun əczaçılığı evdə ətirlərin,çiçəklərin qarışığından yeni ətirlər yaratmaqdan ibarət idi. Bunu evdə sakitcə edər və heç kimə ətiri nədən düzəltdiyini deməzdi. Qəribədir ki, anam dindar deyildi, ancaq şəriət qanunlarıyla yaşayırdı və bizi də elə tərbiyə edirdi.

Atam haqda çox yazmışam. Bir neçə hekayəmin qəhrəmanlarının real prototipidir atam. Atam ömrünün 50 ilini hüquq mühafizə sahəsində çalışmağa həsr edib. Muharibə vaxtı Ağdamda

komissarlıqda, sonralar Azərbaycanın bir çox bölgələrində milis rəisi işləyib. Bəlkə ona görə bizim hər rayonda tanışımız, dostumuz olub və indiyə qədər də atamı xatırlayanlar var. Ailəmizdə atama xüsusi münasibət var idi həmişə. Atam şəxsiyyət idi. O heç vaxt yalan danışmazdı, işində, ailədə çox məsuliyyətli idi. Biz onunla özümüzü həmişə arxalı, dayaqlı hiss edirdik. Bilirdik ki, büdrəsək əlimizdən tututb qaldıranımız var. Atam ciddi və zəhmli olmaqla bərabər çox yumşaqürəkli və mehriban insan idi. Onda insanları anlamaq, düzgün qərar qəbul etmək qabliyyəti var idi. Hekayələrimin birində milis rəisi öz oğlunun qatilini bağışlayır, digərində 10 il qadın koloniyasında dustaq olan rus qadının getməyə yeri olmadığı üçün milis mayoru onu həmişəlik öz evinə baxıcı kimi gətirir və ailəsində saxlayır. Həmin qəhrəmanlarımın həyatda prototipi atam olduğunu qürurla dəfələrlə qeyd etmişəm. Atamın həyatda etdikləri bizə bir örnək idi. O heç vaxt evladlarını qarşısında otuzdurub onlara tərbiyəvi mühazirələr oxumazdı. O bizə yaşamağı əməlləriylə, gördüyü işlərlə öyrədirdi.
**Sual:**Bəs elə isə deyin, ananızın o reseptlərindən sizdə qalırmı, istifadə edirsizmi onun təcrübəsindən?
**Cavab:** Edirəm, bəli. Mənim istifadə etdiyim ətiri heç kim tanımır. Ona görə ki, ona bir qədər sirr qatıram)). Bir əsərimdə qadının əlindən öpən sevgilisi onun ətirini tanımadığını deyir. Qadın gülə-gülə cavab verir: “Mən istifadə etdiyim ətirin adını heç kimə demirəm”. Qeyd edim ki, əsərin adı “Sirr”dir .
**Sual:** Ali təhsil illəri,gənclik xatirələri o qədər əziz olur ki… Xatırladıqda uzaqlaşır… Əlini uzadırsan tuta bilmirsən. Bu barədə indiyə qədər heç kimə demədiyiniz nələr var içinizdə?
**Cavab:** Tələbəlik illərindən danışdıqda belə, insan ruhən cavanlaşır. Mən 16 yaşımda tələbə oldum. Düzünü deyim ki, həyata hazır deyildim. Evdə həmişə valideynlərimin, məndən böyük baçılarımın və qardaşımın himayəsini hiss edirdim. Tələbəliyin ilk aylarından təkbaşına həll edə bilməyəcəyim qayğılar yaşamalı oldum. O illər həyatımda bir çox yadda qalan iz buraxdı. 19 yaşımda tələbəliyin ən gözəl çağlarını yaşayarkən qəfildən anamı itirdim. Bu mənim üçün çox ciddi sarsıntı idi. Əgər dostlar, qohumlar, baçılarım, qardaşım və, ən əsası, atam olmasaydı çox çətin olardı. Anamın ölümü məni tam dəyişdi. Adətən səsli-küylü, deyib-gülən, çalıb-oxuyan bir gənc

qızdan susqun, kədərli bir insana çevrildim. Anamdan sonra həyatımda baş verənlər sanki mənimlə deyil, başqa bir insanla əlaqəli idi. Hekayələrimin birində yazmışam ki, "anasız gəlin köçmək o qədər çətindir ki! Gözün ən yaxın adamı, ananı axtarır o gün . Tapmayanda için yanır, gəlinlik gününün xoşbəxtliyini tam hiss edə bilmirsən". Zaman keçdikcə çox şeylə barışdım. Həyat öz məcrasına düşdü. Bax tələbəliyimin bu məqamlarını heç vaxt heç kimə deməmişdim.

**Sual:** Bəs sevgiyə münasibətiniz necədir? Axı gənclik həyatın elə mərhələsidir ki, qan qaynayır, qəlb coşur. Gözlər qeyri-adi işıqlanır. Bir sözlə, hər şey insanı sevib yaşamağa çağırır… ilk sevgi var, bəs son da varmı?

**Cavab:** Banal cavab olsa da deyəcəm ki, sevgisiz yaşayanlar bədbəxt insanlardır. Sevgi bəşəriyyəti, insanlığı, ümumiyyətlə, dünyanı çökməyə qoymayan bir hissdir. Sevən insan həyata daha çox bağlanır, daha güclü olur. Hər birimizin gənclik sevgisi olub təbii ki. Bu insanın qəlbinin lap dərinliyində saxlanan gözəl bir hissdir. Adətən ilk məhəbbət yalnız yadda qalmaq üçün olur. Yəni sevənlər bir -birinə qovuşmurlar. İlk sevgi mütləq var və o sonsuza qədər davam edir məncə, çünki ilk məhəbbətin həsrəti vüsalından güclü olur adətən.

Sevmək gözəl hiss olsa da, sevərək ayrılmaq da var, bir gün sevdiyinin sənə xəyanəti də var, sən sevdiyinin başqasını sevməyi də var, sən sevib ürəyini verdiyinin səni bəyənməyib dəfələrlə sözlə yaralamağı da var. Sevgi varsa ayrılıq da var. Bütün bunlar həyatda var və yaşanır. Mən deyərdim ki, sevginin nə əvvəli nə sonu var. Çünki birinin sevgisi bitdiyi gün digərininki ilk addımını atır. Bir sevgi öldükdə hardasa mütləq digəri doğulur. Bunu normal qəbul etmək lazımdır.

**Sual:** Bilirəm ki, siz o zaman KQB, sonra MTN adlanan qurumda uzun illər işləmisiniz. Onda olmasa da indi məncə nələrisə açıb danışmaq olar. Necə oldu ki, sizi elə bir mötəbər quruma işə qəbul etdilər?

**Cavab:** Bir gün iş yerimə həmin nazirlikdən çağırış gəldi. Əvvəl bu çağırışa bir qədər təəccübləndim, lakin getdim və həmin o qurumun yüksək rütbəli zabitləri mənimlə görüşüb söhbət etdilər. Bu söhbətlərin nə ilə nəticələndiyini təxminən iki il sonra yenidən ora

dəvət ediləndə bildim. Bu müddətdə mənim kimliyim yoxlanırdı.Bu dəfə mənə konkret iş təklif olundu, mən razılaşdım və həmin nazirliyin zabiti oldum. MTN əməkdaşı olduğuma görə özümlə və həmin nazirliyin dövlət və dövlətçilik naminə gecə, gündüz, İstirahət günləri çalışan zabitləriylə qürur duyuram. İnanın ki, bu ürəyi sirlərlə dolu, lakin həmişə susmaq məcburiyyətində olan, kənardan çox adi insan kimi görünən, heç vaxt öz qəhrəmanlıqlarıyla açıq-aşkar fəxr edə bilməyən insanlar həqiqətən hörmətə və təqdirə layiqdirlər.
**Sual:** Təranə xanım, deyə bilərsinizmi ki, zaman sizə işləyib. Sizmi zamanın nəbzin tutmusunuz?
**Cavab:** Aid olduğum nəslin nümayəndələri zamanın nəbzini tutmağı o qədər də bacarmırlar məncə. Bu mənim subyektiv fikrimdir . Səhv edə bilərəm, təbii ki. Ona görə deyə bilərəm ki zaman mənə işləyib
**Sual:** Ədəbi aləmdə sizi ən çox maraqlı hekayələrinizlə tanıyırlar. Hətta şeirlər də yazırsınız. Hekayələrinizi oxuyanda dünyanı cənnət, qəhrəmanlarınızı isə huri hesab edirəm. Sanki real məkanda deyil, tam başqa bir planetdə dövr edir hadisələr. Sizcə səbəb nədir?
**Cavab:**Ədəbi aləmdə çox da tanındığımı heasab etmirəm. Amma oxucularım var. Kitablarım satılır. Hekayələrimi oxuyanlar var və bu məni şox sevindirir. Mən A. P. Çexovun “sözlərin yeri dar, fikrin yeri geniş olsun” prinsipiylə yazıram. Hesab edirəm ki, bu həm də günün tələbidir. Hekayələrim fantastik deyil, hadisələr başqa planetdə deyil elə öz planetimizdə cərəyan edir. Hekayələrimin arxasında həmişə kiçik bir real həyat epizodu durur. Sizinlə razıyam ki, mən həyatın yalnız yaxşı cəhətlərini əks etdirirəm hekayələrimdə. Səbəb çox sadədir. Mən bu çirkinliklərlə, əzab-əziyyətlə, yalanla, xəyanətlə dolu həyatda gözəlliyi, sevgini, etibarı, ləyaqəti, vicdanla yaşamağı görüb göstərmək istəyirəm.Mən ölümdən yazmaqla olumun qədrini bilməyə çağırıram oxucunu. Bəzən də əksinə.
**Sual:** Təranə xanım, deyirlər, ən tez unudulan şey yaxşılıqdır. Çoxmu yaxşılıq etmisiz, çoxmu unudulmusuz…
**Cavab:** Məni tanıyanlar bilir ki, mən pislik etməyi bacarmıram. İnsanlara həmişə yaxşılıq etməyə çalışmışam. İnanın mənə, heç vaxt yaxşılığın əvəzini gözləməmişəm. Çünki yaxşılıq etmək ürəkdən gəlməlidir və bu təmənnasız olmalıdır məncə. O səbəbdən, kim mənim yaxşılığımı unudubsa, halah xoşu olsun. Unudulduğumu zənn etmirəm, çünki özüm çətin unuduram.

**Sual:** Həyatımızdan ömründə bir dəfə də olsa qırmızı xətlə keçən insanlar olur. Bu bəzən bütün həyat axarını dəyişir. Münasibətiniz…
**Cavab:** Mənim həyatımda belə insanlar olub. Bacımın həyat yoldaşı BDU-nun professoru, tanınmış etnoqraf mərhum Həvil Həvilovun mənim şərqşünas olmağımda rolu böyük olub.Osman Mizəyevdən kollektivdə davranmağı öyrənmişəm. Ziya Bunyadov mənə elmə bağlanmamağı məsləhət gördükdə əvvəl incisəm də sonralar onun nə qədər haqlı olduğunu anladım.Şərqşünaslıq fakültəsinin kafedra müdiri və mənim müəllimim Ələskər Məmmədovun məni ali məktəb müəllimi kimi şərəfli bir işlə təmin etməsini heç vaxt unutmuram. Və nəhayət, məni ədəbi yaradıçılıqla məşğul olmağa məcbur edən Nizami Təhməzovu həmişə dərin ehtiramla xatırlayıram. Bu insanlar həyatımın müxtəlif mərhələlərində mənə dəyərli məsləhətlər veriblər. Dediklərinizə münasibətim belədir ki, həyatda müəyyən mövqe tutmuş və səndən daha güclü insanlardan dərs alıb məsləhətlərinə qulaq asmaq heç də zəiflik deyil məncə.
**Sual:** Azərbaycan 30 ilə yaxın Qarabağ həsrətinə son qoydu . 44 gün davam edən döyüşlərdən ölkəmiz üzü ağ çıxdı. Şəhid də olduq , qazi də. Söz adamı kimi bu hadisələrə münasibətiniz…
**Cavab:** Şəhidlərimizin ruhları qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin. Qazilərimizə can sağlığı arzu edirəm. Söz adamı kimi zəfərimiz haqda öz sözümü hələ tam deməmişəm. Bu mövzuda yazdığım bir neçə hekayə hələ son deyil. Hərdən mənə elə gəlir ki, həsrətdən o qədər yazmışam ki, qələbə sevincinə keçid ala bilmirəm. Həm vətəndaş, həm söz adamı, həm zabit kimi deyə bilərəm ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixindəki qara ləkələri silib özünə orda əbədi yer aldı. Bu 44 gün dünya ölkələrini Azərbaycana yeni baxışla baxmağa məcbur etdi. Azərbaycan xalqı bütün dünyaya misli görünməmiş birlik, vətənpərvərlik nümayiş etdirdi. Ali Baş Komandanın dəmir yumruğu altında birləşən ordu və xalq Zəfər çaldı. Bu hadisə bizə qalib ölkənin vətəndaşları kimi fərəhli və qürurlu adı qaytardı. Təbii ki, həm xaricdə, həm daxildə bu qələbəni həzm etməyənlər var. Lakin onlar da artıq reallıqla barışmalıdırlar.
**Sual:** Ömrün, həyatın elə mərhələsindəyik ki,geriyə baxanda kədər, irəli baxanda ümid əl edir bizə. Yeni planlarınız, arzularınız.Həyata keçməyən istəkləriniz olubmu? Keçmişə dönmək imkanınız olsaydı

hara gedərdiniz?
**Cavab:** Elədir, zaman amansızcasına ötüb keçir və keçmiş xatirəyə çevrilir, lakin hər yaşda insanı həyata bağlayan, uzun qaranlıq tunelin sonunda parıldayan bir ümid işığı olur. O işıq varkən insan planlar qurur, arzular haqda düşünür. Çox istəyərdim ki, bu il nəhayət çoxdan nəzərdə tutuduğum romanım işıq üzü görsün. “Sirr “ adlandırdığım bu roman artıq son variantda çox ehtimal ki, bu il oxuculara təqdim ediləcək.
Həyata keçməyən arzularım olub əlbəttə. Nələrisə asanlıqla əldə edə bilmişəm. Nələrisə çox çətinliklə. Arzu olaraq ürəyimdə qalanlar da olub. Həyatdı da…
Hər birimiz keçmiş yaşayırıq. Keçmişi yaşamasaydıq gələcəyə addımlaya bilməzdik yəqin ki… Ötən günlər ötən sevgi kimidir . Ötdüsə, keçdi, getdi… Geri qayıtmaz…
Ancaq siz dediyiniz kimi möcüzə nəticəsində geri qayıtmaq mümkün olsaydı mütləq Qarabağa Şüşaya, Ağdama qayıdardım. Mütləq Qarabağa! Çünki bu yaşımda daha çox dərk edirəm ki, ömrümün ən yadda qalan günləri məhz Qarabağla bağlıdır.
**Sual:** Sizə vermədiyim və siz özünüz özünüzə verəcəyiniz sual nə ola bilərdi?
**Cavab:** Harda səhv etdim? Türk mahnısında deyildiyi kimi “nərədə yalnış yapdım?”
Düşünürəm ki, Tanrı insana bir neçə dəfə şans verir. Hətta bəzən öz taleini dəyişə biləcək qədər şanslı ola bilir insan. Lakin hər kəs bu şanslardan düzgün istifadə edə bilirmi? Hər kəs ona verilən imkanı öz xeyrinə işlədə bilirmi? Hesab edirəm ki, çox şanslı olmuşam həyatda. Dəfələrlə açılmayan qapılar açılıq qarşımda. İndi, zaman keçdikcə olanları, baş verənləri, şəxsi həyatımı xəyalımdan keçirərək hərdən özüm özümdən soruşuram. Harda səhv etdim? Bəlkə də heç səhv etməmişəm, bəlkə bütün yaşananalar yaşanmalı idi. Bilmirəm. Amma bu sualı verərdim özümə.
**Sual:** “Sirr”in mövzusu hardan alınıb? MTN də yaşadıqlarınızı ədəbiyyata çevirmək fikriniz varmı?
**Cavab:**“Sirr” iki insanın sevgi məcarası ətrafında müəyyən dövrdə olkədə baş verənləri əhatə edən bir əsərdir. Mövzusu həyatdan götürülüb. Bəlkə də romanı oxuduqda kimsə hətta qəhrəmanları tanıyacaq.

O ki qaldı MTN də yaşadıqlarımı ədəbiyyata çevirmək fikrinə, çox ehtimal ki, yox. Əgər ehtiyac duyularsa hər hansı bir vəsait yaza bilərəm. Yəni iş təçrübəmi cavan kadrlarla bölüşərəm. Təbii ki, tam məxfi)).

**Sual:**Sizə can sağlığı, həyatda bundan sonra da şərəflə yaşamağı arzulayıram. Sözün hüzurunda tanrı kimi, Tanrının hüzurunda söz kimi dayanmağı diləyirəm!

**Cavab:**Bu maraqlı və orijinal diləyi ilk dəfə eşidirəm, Şahnaz xanım. Ona görə məmnuniyyətlə qəbul edib sizə təşəkkür edirəm…




*Təranə Məmməd özü"Səmimi Söhbət"in qonağı oldu Şahnaz Şahinlə.*

Bax beləcə daha bir səmimi söhbət başa çatdı. Hamınıza bizimlə bərabər olduğunuz üçün təşəkkür edirəm və ümid edirəm ki, "**SƏMİMİ SÖHBƏT**" **rubrikamız davam edəcək**. Təki ömür möhlət versin.

